# Xocalı fəryadı Borçalıda da dünyanı ədalətə çağırır

**Borçalının şəhər və kəndlərində də Xocalı soyqırımının ildönümü şəhidlərin xatirəsinə dərin ehtiram və qatillərə nifrətlə yad edilir. Marneuli rayonunda fəaliyyət göstərən Azərbaycan Evində "Xocalıya ədalət" adlı anım mərasimi və fotosərgi təşkil olunub. Azərbaycan Diasporuna Dəstək Fondunun dəstəyi ilə keçirilən aksiyada Azərbaycan və Türkiyənin Gürcüstandakı səfirliklərinin nümayəndələri, QMİ-nin Gürcüstan nümayəndəliyinin rəhbərliyi, ictimaiyyət nümayəndələri, gənclər, din və elm xadimləri iştirak ediblər.**




Əvvəlcə Xocalı faciəsindən bəhs edən sərgiyə baxış keçirilib. Qafqaz Müsəlmanları İdarəsinin Gürcüstan nümayəndəliyinin rəhbəri Məhəmməd Şamilov şəhidlərin ruhuna dualar oxuyub. Şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Mərasimi giriş sözü ilə açan Azərbaycan Evinin direktoru Məhəbbət İmanov bildirib ki, Xocalı faciəsi insanlığa qarşı törədilmiş qatı cinayətdir. Gürcüstandakı soydaşlarımız Xocalı faciəsi qurbanlarının xatirəsini həmişə ehtiramla yad edirlər.

Azərbaycanın Gürcüstandakı səfirliyinin müşaviri Kamal Xəlilov deyib ki, faciəyə ilk hüquqi-siyasi qiymət verən ümummilli lider Heydər Əliyevin 1 mart 1994-cü il tarixli fərmanı ilə fevral ayının 26-sı "Xocalı soyqırımı və milli matəm günü" elan olunub. Bildirilib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti Xocalı soyqırımına dünyada hüquqi-siyasi qiymət verilməsi istiqamətində fəal iş aparır. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın başlatdığı "Xocalıya ədalət" kampaniyası çərçivəsində artıq dünyanın 50-dən çox ölkəsinin parlamentində Xocalı faciəsi soyqırımı kimi tanınıb, bu istiqamətdə işlər davam etdirilir. 2020-ci ildə Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad edib, bununla da düşməndən şəhidlərimizin qisası alınıb.

Türkiyənin Gürcüstandakı səfirliyinin nümayəndəsi Uğur Tahnal deyib ki, Xocalı soyqırımı təkcə Azərbaycan xalqına qarşı deyil, bəşəriyyətə qarşı törədilmiş kütləvi qırğın aktıdır. Türkiyə xalqı ağır günlərdə daim qardaş Azərbaycan xalqının yanında olub və şəhidlərimizin xatirəsini hər zaman ehtiramla yad edir.

Gürcüstan parlamentinin sabiq deputatı Azər Süleymanov, Ruslan Hacıyev, Ramiz Bəkirov və Gürcüstan Azərbaycanlıları Konqresinin sədri Hüseyn Yusubov xalqımızın, eləcə də Gürcüstanda yaşayan




soydaşlarımızın bu amansız soyqırım aktını heç zaman unutmayacağını bildiriblər.

Xocalı əsilli Marneuli sakini Gülnaz Çıldırlı ana yurdunda baş verənlər barədə ürəkağrısı ilə danışıb, torpaqlarımızın işğaldan azad edilməsinə, Xocalının dirçəldilməsinə görə Azərbaycan Prezidentinə ailəsi adından minnətdarlığını bildirib.

Borçalı ictimaiyyəti adından Dmanisi Təhsil və Tədris Mərkəzinin rəhbəri Kamran Xıdırov, Elmi Araşdırmalar Asossiasiyasının rəhbəri Ehtiram Əmirxanlı, Hacı Əziz Nəbiyev, professor Mahmud Kamaloğlu, yazıçı və jurnalist Əlixan Yəhyaoğlu, Kəpənəkçi orta məktəbinin direktoru Çingiz Yaqubov, gənc fəal Rəşan Ziyadəliyev və başqaları çıxış edərək bildiriblər ki, heç zaman susmayan Xocalı fəryadı dünyanı ədalətə çağırır, erməni millətçiliyinə lənət yağdırır.

Sonda Esmira Ələkbərlinin "Nəfəs fasiləsi" adlı hekayəsi əsasında hazırlanmış eyni adlı tamaşa nümayiş etdirilib. Xocalı qətliamını səhnədə Qaçağan kəndindəki 2 saylı ictimai məktəbin şagirdləri təcəssüm etdiriblər.

***Paşa ƏMİRCANOV***
***XQ***

Xalq qəzeti .- 2025.- 25 fevral (№ 42).- S.13.